Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Dünya separatçı xuntanın 9 sentyabr seçkisini rədd etdi - postmüharibə reallıqları dünyanın menyusunda...

**Üç ilə yaxındır ki, 44 günlük müharibəsi başa çatıb. Azərbaycanın qələbəsi ilə nəticələnən müharibədə Ermənistanın işğalında olan torpaqlarımız böyük ölçüdə geri qaytarılıb. Əlbəttə, hazırda müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarət etdiyi ermənilər yaşayan ərazimizdə də Azərbaycanın öz suverenliyini təmin etməsinə çox qalmayıb.**



Azərbaycanın qələbəsi dünyada böyük əks-səda yaratmaqla yanaşı həm də yeni geosiyasi reallıqlar yaratdı. Müsbət haldır ki, dünya Azərbaycanın həm qələbəsini, həm də öz torpaqları uğurunda suverenliyini tanıyır. Sözsüz ki, 44 günlük Vətən müharibəsində qazanılan qələbə Azərbaycanı dünyada qalib dövlət, qalib xalq kimi tanıtdı. Eyni zamanda bütün dünya gördü ki, Azərbaycan necə vəhşi, vandal bir ölkə, bir toplumla mübarizə aparıb. Müharibədən də sonra Azərbaycan sülhün əldə edilməsi üçün bütün mümkün addımları atıb, atmaqda da davam edir, öz ədalətli mövqeyini, iradəsini dünyaya bəyan edir. Azərbaycan sülh deyir, Ermənistan isə hələ də öz obrazından çıxmaq istəmir.

Bu gün bütün dünya Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlərdən xəbərdardır və onların xislətinə bələddir. Dünya bilir ki, işğal dönəmində erməni separatçıları, şovinstləri, terrorçuları Azərbaycan ərazilərini talan edib dağıtdılar, abidələrimizi, təbiıtimizi məhv etdilər, dinc insanlarımızı soyqırıma məruz qoydular. Bütün bunlar dünya ictimaiyyətinə çatdırılır. O da məlumdur ki, müharibədən keçən 2 il 10 ay ərzində Qarabağdakı erməni separatçıları dinc dayanmır və hər cür oyunlara əl atırlar. Müharibədə qalib olan Azərbaycan Qarabağda yaşayan ermənilərin reinteqrasiyasını gerçəkləşdirmək istəyir və bunu bütün dünyaya bəyan edib, BMT-də və başqa beynəlxalq platformalarda, görüşlərdə dilə gətirib. Belə bir şəraitdə Qarabağdakı separatçılar Fransanın, Ermənistanın və Rusiyanın açıq dəstəyi, bəzi ölkələrin isə üstü örtülü köməyi ilə separatçılıq niyyətlərini icra edirlər. Son zamanlar Qarabağda yaşanan şoular haqda dünya bilir. Separatçılar və havadarları "müstəqillik" "əldə etmək" üçün hər cür kələk işlədirlər, amma bu fayda vermir, çünki ora Azərbaycanın suveren ərazisidir və bu bunu da dünya qəbul edib.

**Dünya dövlətləri qondarma "prezident seçkisi"ni tanımadı...**

Qarabağdakı separatçılar Azərbaycan Prezidentinin mesajını eşidib təslim olmaq əvəzinə orada oyunbazlıq edir. Separatçıbaşı Araik Arutyunyan "postundan" "istefa" verdikdən sonra quldur dəstəsi "prezident seçkisi" keçirəcəklərini bəyan etdilər. Separatçılar ümid edirdilər ki, bəzi Avropa dövlətlərinin və erməni lobbisinin təsiri ilə sentyabrın 9-da keçirdikləri qondarma "seçki"ni tanıda, qəbul etdirə biləcəklər. Amma məlum olduğu kimi, separatçıların xəyalları suya düşdü və iflasa uğradı. Bu "seçki" barədə xəbər yayılar yayılmaz Azərbaycanın Xarici İşlər Nazirliyi bəyanat yayıb seçkini qanunsuz adlandırdı, bu təxribata sərt reaksiya verdi. Diqqət çəkən məqamlardan biri odur ki, müxtəlif xarici dövlətlər bəyanat verib separatçıların seçkilərinin nəticələrini tanımadıqlarını bildirdilər. Məsələn, Türkiyə, ABŞ, Böyük Britaniya, Almaniya, Özbəkistan, Rumınya, Moldova, Gürcüstan, Estoniya, Ukrayna və başqa ölkələr Azərbaycanın Qarabağ bölgəsində keçirilən qondarma "prezident" seçkisini qəbul etmədiklərini, tanımadıqlarını bəyan etdilər.

**Avropa İttifaqı da separatçıların addımını pisləyib...**

"9 sentyabr 2023-cü il tarixində Xankəndi/Stepanakertdə keçirilən qondarma "prezident seçkiləri"ni nəzərə alaraq, Avropa İttifaqı bir daha bəyan edir ki, o, "seçkinin" keçirildiyi konstitusiya və hüquqi çərçivəni tanımır". Bunu Aİ-nin Xarici Fəaliyyət Xidmətinin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə sözçüsü Nabila Massrali bildirib.

"Eyni zamanda, Aİ hesab edir ki, Qarabağ ermənilərinin Bakı ilə nəticəyönümlü müzakirələr aparmağa qadir və buna hazır olan de-fakto liderlik ətrafında cəmləşməsi vacibdir. Aİ bu prosesi dəstəkləməyə sadiqdir" - o, qeyd edib.

**"Separatçıların "seçki"si tamamilə iflasa uğradı, dünya tərəfindən tanınmadı, rədd edildi"**

"Müasir İnkişaf" Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü "Bakı-Xəbər"ə şərhində bildirdi ki, Qarabağdakı bir qrup separatçının siyasi vəziyyəti çox gərgindir, onlar üçün heç bir perspektiv görsənmir, gələcəkləri qaranlıq görsənir: "Çünki Azərbaycan artıq güclü geosiyasi, diplomatik, siyasi təbliğatlar həayata keçirir, öz ədalətli mövqeyini bəyan edir, haqlı olduğunu sübut edir. Reallıq odur ki, Azərbaycan dövləti Qarabağ İqtisadi rayonunda yaşayan erməniləri cəmiyyətə reinteqrasiya edib onların həyatlarını yaxşılaşdırmaq istəyir. Azərbaycanın niyyəti öz vətəndaşlarını separatçı xuntanın əlindən xilas etməkdir. Biz öz mövqeymizi hər zaman açıq bəyan etmişik. Amma təəssüf ki, separatçılar tamamilə başqa yollara əl atır, saxta seçkilər keçirir, kimisə "prezident" elan edirlər. Qarabağ bölgəsində yaşayan ermənilər gec-tez bizim cəmiyyətə reinteqrasiya edəcək və separatçıların da təslim olmaqdan başqa çarələri yoxdur. Ya təslim olacaqlar, ya da çıxıb birdəfəlik gedəcəklər. Xaçaturyanın taleyi hamısına görk olmalıdır ki, əli azərbaycanlıların qanına batan hər kəs cəzasını alacaq. Bu məsələnin bir tərəfi, ikinci tərəfi isə odur ki, onlar havadarlarının dəstəyi ilə "seçki" keçirdilər, amma separatçıların "seçki"si tamamilə iflasa uğradı, dünya tərəfindən tanınmadı, rədd edildi. Onlara heç bir beynəlxalq dəstək olmadı. Hətta Paşinyan belə reallığı düzgün qiymətləndirməyə çalışaraq yeni "seçilən" separatçı ünsürü təbrik etmədi. Bu gün bütün dünya bilir ki, ora Azərbaycanın suveren ərazisidir. Bu da onu göstərir ki, dünya Azərbaycanın haqlı mövqeyini dəstəkləyir"-deyə M.Göyüşlü qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**